

# Kərim Məmmədxan oğlu Kərimov (1933–2020)

Görkəmli geoloq alim, Əməkdar elm və texnika xadimi, "Şöhrət" ordenli, AMEA-nın müxbir üzvü Kərim Kərimov 2020-ci il aprel ayının 14-də 87 yaşında vəfat edib.

Kərim Kərimov 1933-cü il iyun ayının 5-də Ağdam şəhərində anadan olub. 1952-ci ildə Bakıda orta məktəbi bitirib Azərbaycan Sənaye İnstitutuna (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) daxil olub, 1957-ci ildə oranı dağ mühəndisi-geofizik ixtisası üzrə bitirib.

K.Kərimov 1961-ci ildə əyani aspiranturaya daxil olub, 1964-cü ildə elmlər namizədi dissertasiyasını uğurla müdafiə edib. 1978-ci ildə Moskvada doktorluq dissertasiyasını müdafiə edərək geologiya-mineralogiya elmləri doktoru elmi dərəcəsini, 1990-cı ildə geofizika üzrə professor elmi adını alıb. 1991-ci ildə Azərbaycanın Əməkdar elm xadimi adına layiq görülüb. 1992–1996-cı illərdə Geofizika Baş İdarəsinin rəisi, 1996–2005-ci illərdə Geofizika və Mühəndis Geologiyası İB-nin baş direktoru, 2006–2008-ci illərdə isə Geofizika və Geologiya İdarəsində elmi işlər üzrə baş müşavir vəzifələrində çalışıb.

Professor Kərim Kərimov Azərbaycan və dünya elminə bir çox töhfələr verib. Onun Azərbaycan neft sənayesinin inkişafında ayrıca rolu var. O, elmi əsaslarla sübut etmişdir ki, Azərbaycan böyük neft və qaz ehtiyatlarına malikdir. Hələ 1992–1993-cü illərdə Azəri-Çıraq-Günəşli yataqlarında hasil olunacaq neft ehtiyatlarının 500–550 mln. t civarında olması söylənildiyi bir vaxtda professor Kərim Kərimov bu ehtiyatların əslində 730–750 mln. t həcmində olmasını sübut etmişdir. Bakı-Tbilisi-Ceyhanın təməl daşı qoyulan zaman onun göstərdiyi rəqəmlər öz təsdiqini tapmışdır.

K.Kərimov bir neçə beynəlxalq akademiyanın həqiqi üzvü və 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilib. Onun rəhbərliyi ilə 1993–1995-ci illərdə Azərbaycanda uzunluğu 100–120 km, 6–7 strukturdan ibarət yeni neftli-qazlı tektonik zona aşkar edilib, ona ümummilli liderimiz Heydər Əliyevin ölkəyə rəhbərliyə qayıtması münasibətilə "Qayıdış" adı verilib.

O, Azərbaycanda onlarla beynəlxalq əhəmiyyətli elmi konfrans, simpozium və seminarlar təşkil etmiş, dünyanın müxtəlif ölkələrində keçirilən beynəlxalq konfranslara qatılaraq ölkəmizi layiqincə təmsil etmişdir.

2001-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin fərmanı ilə o, "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Zəlzələnin proqnozlaşdırılması üsulu ilə bağlı iki ixtirası öz mahiyyətinə görə elmin ən böyük nailiyyətlərindən hesab edilə bilər. Kərim Kərimovun "Zəlzələ. Öncədən proqnoz" adlı monoqrafiyası dünya alimlərinin də böyük marağına səbəb olmuşdur.

Professor Kərim Kərimov 550-dən artıq elmi əsərin – məqalə, atlas, xəritə və monoqrafiyaların müəllifidir.



Kərim Kərimov 1993-cü ildə AMEA-nın təşəbbüsü ilə yaradılan Azərbaycan Milli Geofizika Komitəsinin və ABŞ Kəşfiyyat Geofizika Cəmiyyətinin Azərbaycan bölməsinin prezidenti seçilmişdir.

Görkəmli alimin dörd dildə çap etdirdiyi "Azərbaycan neft və qaz potensialı" monoqrafiyası ona dünya alimləri sırasında böyük nüfuz qazandırmışdır. O, 15 ixtira və patentin müəllifidir.

Onun gənc elmi kadrların hazırlanmasında da xüsusi xidmətləri olmuşdur. Belə ki, onun rəhbərliyi ilə 18 elmlər namizədi və 4 elmlər doktoru dissertasiya işini müvəffəqiyyətlə müdafiə etmişdir.

Kərim Kərimov həm də istedadlı rəssam idi. 1956-cı ildən başlayaraq əsasən satirik xarakterli ədalətsizlik, irqçilik və sair mövzularda minlərlə karikatura çəkmişdir.

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, geologiya-mineralogiya elmləri doktoru, professor, Azərbaycanın əməkdar elm və texnika xadimi, Beynəlxalq Şərq Akademiyasının həqiqi üzvü, Beynəlxalq Ekoenergetika Akademiyasının həqiqi üzvü, Avropa Elmlər Akademiyasının həqiqi üzvü, Lütfizadə adına Beynəlxalq Akademiyanın həqiqi üzvü, Geofizika və Geologiya İdarəsinin Elm üzrə Baş müşaviri, Azərbaycan Milli Geofizika Komitəsinin prezidenti, Amerika Kəşfiyyatçı Geofiziklər Assosiasiyasının (SEG) Azərbaycan bölməsinin prezidenti, "Azərbaycanda geofizika yenilikləri" jurnalının baş redaktoru, BDU-nun və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin professoru, 500-dən artıq elmi əsərin, bir çox elmi monoqrafiyaların, 4000-dən çox siyasi karikatura və plakatların müəllifi, 1988-ci ildən başlayaraq bir neçə ölkədə "İlin adamı", "İlin ixtiraçısı" və "İlin alimi" seçilmiş, dövlətimiz tərəfindən bir çox medallar və "Şöhrət" ordeninə layiq görülmüş görkəmli alimin xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

**Allah rəhmət eləsin!**